# Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı—"*Qızıl Ulduz*" medalı təsis edilsin.[1]

2. "*Qızıl Ulduz*" medalının şəkli və təsviri təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

Bakı şəhəri, 7 iyul 1992-ci il
№ 201.

## *“Qızıl Ulduz” medalının təsviri*[2]

*“Qızıl Ulduz” medalı üz tərəfində ikiüzlü hamar şüalar olan, 31,5 mm qabarit ölçülü səkkizguşəli ulduzdan ibarətdir, sarı qızıldan hazırlanmışdır.*

*Arxa tərəfi hamar səthlidir, ortasında “Azərbaycanın Milli Qəhrəmanı” sözləri yazılmışdır. Arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.*[3]

*Medal ilgək, halqa və 40 mm enində üçkünc element vasitəsilə ölçüsü 37 mm x 50 mm olan Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun üçrəngli ~~beşkünc~~ xara lentə birləşdirilmişdir. Lentin yuxarı kənarında qızıldan ensiz metal lövhə və paltara bərkidilmək üçün element vardır.*[4]

*Medala paltara bərkidilmək üçün elementi olan, Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən, ölçüsü 37 mm x 10 mm olan qəlib əlavə olunur. Qəlibin üzərində 5 mm ölçüdə, qızılı rəngli ay və ulduz təsvir olunmuş dairəvi element vardır.*[5]

**“QIZIL ULDUZ” medalı**[6]



## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 fevral 1998-ci il tarixli **429-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**)
2. 18 dekabr 2015-ci il tarixli **65-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 yanvar 2016-cı il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 32**)
3. 1 oktyabr 2018-ci il tarixli **1243-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 noyabr 2018-ci il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2185)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 fevral 1998-ci il tarixli **429-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**) ilə 1-ci və 2-ci bəndlərdə "**Ay-Ulduz**" sözləri "**Qızıl Ulduz**" sözləri ilə əvəz edilmişdir.

[2] 6 fevral 1998-ci il tarixli **429-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 141**) ilə əlavə olunmuş "Ay-Ulduz" medalının təsviri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~"AY-ULDUZ" MEDALININ TƏSVİRİ~~

~~"Ay-Ulduz" medalı aypara və səkkizguşəli ulduzdan ibarətdir, üz tərəfində ikitilli hamar şüalar təsvir edilmişdir.~~

~~Arxa tərəfin səthi hamardır və kontur üzrə qabarıq nazik sağanaqla əhatələnmişdir.~~

~~Arxa tərəfdə medalın mərkəzində qabarıq hərflərlə yazılmışdır: "Azərbaycanın Milli Qəhrəmanı". Yuxarıdakı şüada medalın 1 mm hündürlüyündə nömrəsi göstərilmişdir.~~

~~Medal ilgək və halqa ilə zərli metal qəlibə birləşir. Qəlib hündürlüyü 20 mm, eni 26 mm olan beşbucaqlı lövhəcikdən ibarətdir, lövhəcik perimetr üzrə haşiyələnmişdir.~~

~~Qəlibin oturacağı boyunca kəsiklər açılmışdır, onun iç hissəsinə Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinə uyğun olan üçrəngli xara çəkilmişdir.~~

~~Qəlibin arxa tərəfində medalı paltara bərkitmək üçün yivli çiv və somun vardır.~~

~~Medal qızıldandır, çəkisi 21,5 qramdır.~~

[3] 18 dekabr 2015-ci il tarixli **65-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 yanvar 2016-cı il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 32**) ilə "Qızıl Ulduz" medalının təsviri"nin ikinci hissənin ikinci cümləsində "**nömrəsi**" sözündən əvvəl "**seriyası və**" sözləri əlavə edilmişdir.

1 oktyabr 2018-ci il tarixli **1243-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 noyabr 2018-ci il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2185)** ilə "Qızıl Ulduz" medalının təsviri"nin ikinci hissəsinin ikinci cümləsində "**Yuxarı şüanın küncündə**" sözləri "**Arxa tərəfinin aşağı hissəsində**" sözləri ilə əvəz edilmişdir.

[4] 18 dekabr 2015-ci il tarixli **65-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 yanvar 2016-cı il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 32**) ilə "Qızıl Ulduz" medalının təsviri"nin üçüncü hissənin birinci cümlədə "**ilgək və halqa vasitəsilə ölçüsü 27 mm x 20 mm**" sözləri "**ilgək, halqa və 40 mm enində üçkünc element vasitəsilə ölçüsü 37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir, "**beşkünc**" sözü çıxarılmışdır və ikinci cümlədə

"**qızıl suyuna çəkilmiş**" sözləri "**qızıldan**" sözü ilə əvəz edilmişdir.

[5] 18 dekabr 2015-ci il tarixli **65-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 yanvar 2016-cı il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 32**) ilə "Qızıl Ulduz" medalının təsviri"nin dördüncü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*Medala üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir edilmiş, paltara bərkidilmək üçün elementi olan 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur*~~

[6] 18 dekabr 2015-ci il tarixli **65-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 yanvar 2016-cı il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 01, maddə 32**) ilə Azərbaycanın Milli Qəhrəmanının "Qızıl Ulduz" medalının eskizi bu Qanuna əlavə olunmuş yeni eskizi ilə əvəz edilmişdir.